# “O olmasın, bu olsun” tamaşası Sumqayıt səhnəsində

**Sumqayıt Dövlət Dram Teatrı öz tarixində ikinci dəfə dahi Üzeyir Hacıbəylinin yaradıcılığına müraciət edərək növbəti uğuruna imza atdı. Böyük bəstəkarın məşhur “O olmasın, bu olsun” operettası teatrsevərlərin ovqatını təzələdi, hər kəsə unudulmaz anlar yaşatdı. Ayrı-ayrı səhnələr dönə-dönə alqışlandı, zaldan tamaşanı izləyən seyrçilər dəfələrlə möhtəşəm musiqi parçalarının ifaçılarına qoşulub oxudular. Yüz on bir il öncə ilk dəfə Bakıda Mayılov qardaşları teatrında oynanıldığı vaxtdan zərb-məsələ çevrilmiş deyimləri anındaca aktyorlarla bərabər sevə-sevə səsləndirdilər. İki saata qədər vaxtın necə keçdiyini kimsə duymadı.**





Sumqayıt tamaşaçıları daha öncə –1991-ci ildə bu teatrda Üzeyir bəyin ölməz irsinin yaratdığı möcüzəli auraya düşmüşdülər. Onda “Arşın mal alan” oynanılmışdı. İndi də “O olmasın, bu olsun” onları yenidən böyük Üzeyir sənətinin sehrinə saldı.

Premyerasına həvəslə qatıldığımız tamaşaya quruluşu istedadlı rejissor, Əməkdar artist Namis Şirməmmədov verib. Səhnə əsərinin quruluşçu rəssamı Elşən Sərxanoğludur. Tamaşadan öncə teatrın direktor əvəzi, Əməkdar artist Vidadi Məmmədov qonaqları salamladı, hər premyeranın bir bayram olduğunu dedi və bu əsərin Sumqayıt teatrı səhnəsinə gəlməyi zərurətindən danışdı. Teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov Üzeyir dühasından, onun bütün janrlarda qələmə aldığı əsərlərin hər zaman üçün aktuallığından və obrazlarının xarakter zənginliyindən danışdı. Namis Şirməmmədov Üzeyir əsərlərinə yanaşmanın böyük məsuliyyət olduğunu bildirdi, klassik ənənəyə sadiqlik naminə işlədilən mizanlardan danışdı, yaradıcı kollektivin səylərinin bəyənilcəyinə ümid etdiyini söylədi.

Pərdə açılan kimi gözlər önündə bir əsr əvvəlki həyat səhnələri seyrçiləri öz aurasına qovuşdurdu. Bir daha gördük ki, Üzeyir bəyin ölməz musiqisi, burada fonoqramda verilsə belə, necə də cazibədardır, necə də könül güldürəndir. Əslində, bu musiqi parçaları, rəqslər tamaşada mühüm dramaturji rol oynayır, hadisələrin gedişatına fəal təsir edir, qəhrəmanların xarakterinin açılmasına kömək edirdi. Məşədi İbad (Habil Xanlarov) obrazının musiqi partiyası ənənəvi xalq mahnı-rəqs havalarına əsaslanan orijinal parodiya üzərində qurulmuşdu. “Uzundərə” lirik xalq rəqsinin azca əl gəzdirilmiş melodiyası və Məşədi İbadın “Mən nə qədər qoca olsam da...” mahnısı kor-kobud taciri olduğu kimi səciyyələndirir, onun mənəvi məğlubiyyətini doğru-dürüst göstərirdi. Üzeyir Hacıbəylinin bu əsərdə ilk dəfə olaraq, lirik obrazların fərdi aləmini əks etdirən mahnı-ariya xarakterli melodiyalar yaratmasının təlqin etdiyi heyranlıq, beləcə, onillərdir ki, səngimir ki, səngimir. Müsbət obrazların, həm də Füzulinin qəzəllərindən istifadə olunan duetlərlə səciyyələndirilməsi də təbii təsir bağışlayırdı.

Quruluşçu rejissorun tamaşaya gətirdiyi uğurlu detallar da az deyildi. Mizanların dəqiqliyi, söz-hərəkət sinxronluğu, məkan-dekorasiya dəyişdikcə dövrə uyğun əlbisələr geyinmiş xidmət personalının səhnə maşinistlərini əvəz etməsi sünilik təlqin etmirdi. Maraqlı bir rejissor tapıntısını da qeyd etsək, yetərli olar: Rüstəm bəyin qızı Gülnazı ilk dəfə görməyə gələn Məşədi İbad qulluqçu Sənəmə bir abbası saqqız pulu verir. Sonra hündür hasardan Gülnazgilin bağına boylandığında “qızın ikinci adaxlısı” Sərvərlə deyişərkən ayağının altındakı hambalın belini əzdiyi üçün ona da bir abbası vəd edir. Amma hambal tamaşa boyu borcunu dəfələrlə istəsə də, hamıya pul paylayan Məşədi onu razı salmır ki, salmır. Əvəzində artıq Məşədinin arvadı olan Sənəm “ilk görüş”ün yadigarı kimi hələ də saxladığı bir abbasını hambala verir ki, bununla da həmin borc söhbəti tamamlanır.

Tamaşada digər obrazları Əməkdar artist İlahə Səfərova, aktyorlar Şəhla Məmmədova, Elay Xasıyev, İlham Səfərli, Yalçın Səlimov, Dağlar Rüstəmov, Rövşən Əsgərov, Ceyhun Məhərrəmov, Elmir Mehdiyev, Cavanşir Eyyubzadə, Ramazan Xanlarov, İlqar İbrahimov, Füzuli Qərənlizadə, Etibar Əmirov, Orxan Firudinov və başqaları layiqincə canlandırırlar. İmprovizələri yerinə düşür.

Dahi sənətkarın ölməz əsərinin Sumqayıt səhnəsində premyerası, sözün əsl mənasında, sürəkli alqışların müşayiətilə başa çatdı. Beləcə, dönə-dönə baxılmış məşhur filmdən hər kəsin tanıdığı personajlar sumqayıtlı aktyorların oyun tərzində və yeni rejissor yozumunda sonsuz maraq doğurdu.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***